

BÜRHAN GÜVEN

## SƏNİN YANINDA

Ey sevgilim,
Sənə çatmaq,
Əlini tutmaq,
Səninlə yaşama
Möhtəşəmdi...
Sənin yanında -
Çox qorxduğum rüzgarını belə
Uğultusunu ömürlük dinləsəm
Rüzgardan doymaram...
Sənin yanında
Göy gurultusu belə
Mənə bir eşq şərqisi kimi gələr
Göy gurultusundan doymaram...
Sən...
Sən hər şeysən...
Mən hər an səni yaşayıram -
Titrəyərək, üşüyərək
Hər an gedəcəyindən qorxaraq...

## BİR DAHA

Qoparma gülümü,
İncitmə könlümü,
Öldürmə sevgimi
Açmaz bir daha...
Sabahım, işığım,
Sevənim, aşiqim,
Qırılar qanadım
Uçmaz bir daha...
Dərdimə dərmanım,
Eşqimə gümanım,
Könlümə fərmanım
Keçməz bir daha...
Eşqimiz solarsa,
Qiyamət qoparsa,
Ox yaydan çıxarsa
Çaşmaz bir daha...

## QUŞ SÜDÜ

Sərgərdan könlüm
Bir günə daha "Mərhaba" dedi
Gün gözəldi
İçində sevdanın yeddi rəngi
Havada quşlar
Çöl-çəmən rəngarəng
Yasəmənlərin, zanbaqların,
Sünbüllərin, ətirşahların
Bihuş edən ətri
Ağacların budaqlarında
Cəh-cəh vuran bülbüllər
Yam-yaşıl çöllərdə oynaşan quzular
Anam təndir qalamış
Bişirdiyi çörəyin iştah açan qoxusu
uşaqlarının məktəbin həyətdə
bir-birinə qarışmış - Motsartın musiqisi kimi
ahəngli rəqsi
xülasə - hər şey
elə tam
elə gözəl ki
bir söz var - bir quş südü əskik
O quş südü - Sən...
Sənsən!
SEVDİM
Ey Sevgili,
Səni sevdim...
Gündüzlərim yox oldu,
Gecələr yarım oldu...
Çünki gecələr
Qaranlığında qeyb olduğum
Gözlərindi mənim üçün...
Gecələrin qaranlığında ulduzları
Sən deyə sevdim...
Ulduzlar - gözlərinin içindəki
İşıqdı mənim üçün...
Mən gündüzləri heç sevmədim...
Gündüzlər heçlik,
Gecələr varlıqdı mənim üçün...
Ulduzlara baxdım -
SənSən deyə...
Doya-doya seyr etdim
Ta ki gözlərim qapanıb
yuxuya gedənə qədər...
Onsuz da yuxularımda  Sən vardın...
Mən gecələri Sən varsan deyə
sevdim...



MURAT ÇAKIR

Sən getdin ürəyim viranə qaldı
Göz yaşım sel oldu, gözümün nuru.
Könül sənsiz yenə xəyala daldı
darıxdım bil artıq, gözümün nuru.
Zaman keçməz oldu, saatlar yorğun,
Sənsizlik iztirab, sənsizlik vurğun.
Bitab bir haldayam, könlüm də küskün
Qəfildən gəl artıq, gözümün nuru.
Bir Məcnun misalı yanar bu könlüm,
Gecə-gündüz səni anar bu könlüm,
Bir gün gedəcəksən anar bu könlüm,
İçimdə qal artıq, gözümün nuru.
Bu ayrılıq mənə ölümdən betər,
Çəkdiyim acılar nə zaman bitər?
Həsrətin dözülməz, bu niskil yetər
Qapımı çal artıq, gözümün nuru.
Gülü qoxlayıram, tənin qoxuyur,
Bu eşqi ürəklər gözəl oxuyur,
O içdən baxışın yandırır-yaxır
Atəşdən al artıq, gözümün nuru.

